

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 100 (21.761)

*26 may 2017-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında Respublika Günü qeyd olunub

Tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı idarə heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar həkimi Nüsrət Həsənov məruzə edib, partiyanın rayon təşkilatı sədrinin müavini İbrahim Hənifəzadənin və Cəlilkənd ərazi ilk partiya təşkilatının sədri Günel Babayevanın çıxışları dinlənilib. Çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, qısa vaxt ərzində süquta uğramasının səbəblərindən, müstəqilliyimizin bərpası və qorunub saxlanılması istiqamətində görülən işlərdən danışıblar.

Qeyd olunub ki, xalqımız daim öz qəlbində azad yaşamaq, müstəqil dövlətin vətəndaşı olmaq ümidini yaşadıb və bu yolda çətin mübarizələrdən keçib. Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinin kökləri qədim, müstəqilliyə gedən yol isə çox çətin və keşməkeşli olub. Tarixi təcrübələr göstərir ki, bu istəyə çatmaq üçün, ilk növbədə, xalqın məqsəd birliyi və münbit ictimai-siyasi şərait mövcud olmalıdır. Nəhayət, ötən əsrin əvvəllərində belə bir imkan yaranıb və 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə müstəqil Azərbaycan dövlətinin yaradıldığı bütün dünyaya bəyan edilib. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya Aktının qəbulu ilə Xalq Cümhuriyyəti forması elan olunub.

Bildirilib ki, Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaq kimi ali prinsipləri özündə ehtiva edən İstiqlal Bəyannaməsi yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca istiqamətlərini də müəyyənləşdirib. Yeni yaradılan dövlət mürəkkəb bir şəraitdə fəaliyyət göstərib, beynəlxalq aləmdə baş verən dəyişikliklər və buraxılmış səhvlər nəticəsində yalnız 23 ay yaşaya bilib. Tarix üçün çox qısa bir zaman kəsiyində fəaliyyət göstərən Xalq Cümhuriyyətinin gördüyü işlər xalqımızın milli dövlətçilik məfkurəsinin formalaşmasında və inkişafında silinməz izlər buraxıb. Sonrakı dövrlərdə də kommunist rejiminin həyata keçirdiyi sərt, amansız tədbirlər, qeyri-insani, ağlasığmaz cinayətlər xalqımızın istiqlal əzmini qıra bilməyib. Zor gücünə yaradılmış sovet imperiyasını qorxu, xof ilə qoruyub saxlamaq mümkün olmayıb. 1991-ci ildə SSRİ dağılıb və Azərbaycan xalqı öz milli dövlətçiliyini yenidən bərpa edib. Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gələndən sonra respublikamızı Xalq Cümhuriyyətinin hüquqi varisi elan edib.

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev tədbirdəki çıxışında ötən əsrin sonlarında müstəqilliyin yenidən bərpa olunması istiqamətində respublikamızda aparılan azadlıq mücadiləsi yolunda baş vermiş faciəli hadisələri, müstəqilliyimizi yenidən bərpa etdiyimiz günlərdə rastlaşdığımız maneələri, ciddi təhlükələri bir daha xatırladıb, ümummilli lider Heydər Əliyevin böyük çətinliklər bahasına müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, sarsılmaz və əbədi olması istiqamətində gördüyü misilsiz xidmətlərdən ətraflı bəhs edib. O, Prezident cənab İlham Əliyevin xalqımızın tərəqqisi naminə gördüyü işlərin əhəmiyyətindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikamızın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərdən danışıb.

**Elman MƏMMƏDOV**

## Dövlət Yol Polisi İdarəsində sığorta işinin təşkili məsələləri müzakirə edilib



***Mayın 25-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birlikdə muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr barəsində tədbir keçirib.***

Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikada ümumi sosial-iqtisadi inkişafın nəticəsi kimi sığorta sahəsində görülmüş işlərdən danışıb, sığortanın əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası da bu baxımdan vacibdir. Ona görə də bu sahədə təbliğat-maarifləndirmə işləri mühüm əhəmiyyət daşıyır.

Bildirilib ki, ötən müddət ərzində Dövlət Yol Polisi ilə birgə aparılmış tədbirlər nəticəsində muxtar respublikada avtonəqliyyat vasitələrinin mülki məsuliyyətinin sığorta etdirilməsi sahəsində uğurlu nəticələr əldə edilib. Belə ki, ötən dövrlə müqayisədə Naxçıvan Muxtar Respublikasında avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılan müqavilələrin sayında 1088 ədəd artım olub.

Baş vermiş yol-nəqliyyat hadisələrindən dəymiş zərərlərin ödənilməsində sığortanın mühüm sosial vəzifə daşıdığını bildirən Hikmət Əsgərov onu da vurğulayıb ki, bu, hər bir vətəndaş üçün faydalıdır. Çünki mülki məsuliyyətini sığorta etdirmiş nəqliyyat vasitəsi sahibləri yol-nəqliyyat hadisəsi baş verdiyi halda üçüncü şəxslərə dəymiş zərər məbləği də dövlət sığorta orqanları tərəfindən ödənilir.

Qeyd olunub ki, görülmüş işlərlə bərabər, avtonəqliyyat vasitəsi sahibləri arasında hələ də mülki məsuliyyətini icbari sığorta etdirməyən vətəndaşlar vardır. Qarşıya qoyulan vəzifə isə ondan ibarətdir ki, Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir avtonəqliyyat vasitəsi sahibi mülki məsuliyyətini icbari olaraq sığorta etdirməlidir. Bunun üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsi ilə birlikdə tədbirlər hazırlayıb həyata keçirməli və mülki məsuliyyətini icbari qaydada sığorta etdirməyən avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığortaya cəlb olunması məqsədilə qanunun verdiyi səlahiyyətlərdən tam istifadə etməlidir.

Dövlət Yol Polisi İdarəsinin rəisi, polis polkovnik-leytenantı Aydın Ağayev çıxış edərək bildirib ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta müqavilələrinin bağlanmasına nəzarət işi qanunla Daxili İşlər Nazirliyi Dövlət Yol Polisinə həvalə olunub. Bu baxımdan Dövlət Yol Polisi muxtar respublikamızda hərəkətin təhlükəsizliyinin təmin olunması ilə yanaşı, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin də icbari sığorta işinə töhfə verməyə çalışır. Bu işin aparılması üçün Dövlət Yol Polisinin əməkdaşları ötən dövr ərzində Dövlət Sığorta Agentliyi ilə birgə tədbirlər həyata keçirib.

Sonda sığorta işinin aparılmasında fərqlənmiş Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarına pul mükafatları verilib.

**Əli CABBAROV**

## Yaşayış məntəqələrində quruculuq işləri aparılır

Kəngərli rayonunun inzibati mərkəzi Qıvrağın yerləşdiyi ərazinin bir hissəsindən 7-8 il bundan əvvəl torpaq sahələri kimi istifadə edilib. Naxçıvan-Sədərək magistral yolunun solunda yerləşən kənd muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən biri olmasına baxmayaraq, burada da yeni tikilmiş obyektlər barmaqla sayılası qədər az olub. İdarəetmənin təkmilləşdirilməsi məqsədilə yaradılan yeni rayonun mərkəzinə çevrildikdən sonra Qıvraq qəsəbəsində kompleks quruculuq tədbirləri həyata keçirilib. Qısa müddət ərzində müxtəlif istiqamətli tikililər istifadəyə verilib, rayonun idarə, müəssisə və təşkilatları üçün müasir layihə əsasında yeni binalar inşa olunub. Həmin binalarda çalışanlara hərtərəfli iş şəraiti yaradılıb. Qəsəbəarası yollara asfalt salınıb, gözoxşayan gülkarlıqlar yaradılıb. Bir sözlə, qəsəbə müasir rayon mərkəzinə çevrilib.

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə qəsəbədə böyük bir obyektin tikintisi həyata keçirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Kəngərli Rayon İdarəsinin kollektivi zirzəmi ilə birlikdə yeddi mərtəbədən ibarət olan ictimai yaşayış binasının inşası ilə məşğuldur. 48 mənzildən ibarət olacaq binanın zirzəmisi ticarət mərkəzi üçün nəzərdə tutulub. Binanın hər mərtəbəsində 8 mənzil yerləşəcək. Mənzillərin sahələri müxtəlif ölçülərdədir. Tikinti işlərində yerli inşaat materiallarından istifadə olunur.

* * *





Muxtar respublikamızın sosial-iqtisadi inkişafının əsas göstəricilərindən olan tikinti-quruculuq, abadlıq tədbirləri şəhər və kəndlərimizin simasını əsaslı surətdə dəyişib. Əvvəlki illərdə olduğu kimi, cari ildə də kənd yaşayış məntəqələrində quruculuq tədbirləri davam etdirilir. Belə tədbirlərdən birini də Culfa rayonunun Dizə kəndində yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası təşkil edir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları tərəfindən kənddə tikilən məktəb binasının 216 şagird yerlik olması nəzərdə tutulub. Üç mərtəbədən ibarət olacaq kənd tam orta məktəbinin binasında hazırda birinci mərtəbənin tavan hissəsində beton-qəlib işləri görülür. İşlər yekunlaşdıqdan sonra məktəb binası yeni avadanlıqlarla, elektron lövhə və kompüter dəstləri ilə təchiz olunacaq, laboratoriya və fənn kabinələrində lazımi şərait yaradılacaq.

Yeni tikilən kənd mərkəzi isə ikimərtəbəli olacaq. Bu binada kənd icra nümayəndəliyi, bələdiyyə, kitabxana, klub, həkim ambulatoriyası, Yeni Azərbaycan Partiyası Dizə kənd ərazi ilk təşkilatı, baytarlıq məntəqəsi, polis, poçt şöbələri yerləşəcəkdir. Obyektdə beton-qəlib işləri üçün hazırlıq tədbirləri görülür.

Kənddə yeni tikiləcək birmərtəbəli xidmət mərkəzində isə sakinlərin ərzaq və təsərrüfat mallarına olan tələbatlarının ödənilməsi üçün mağazalar fəaliyyət göstərəcək.

**Xəbərlər şöbəsi**

## Mətbuat işçiləri üçün *“Maliyyə savadlılığı”* mövzusunda tədbir keçirilib

***Bu proqram çərçivəsində Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsində təşkil olunan tədbirdə Bakı şəhərindən gəlmiş mətbuat nümayəndələri və Mərkəzi Bankın əməkdaşları iştirak ediblər.***

Tədbiri Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri vəzifəsini icra edən Orxan Abdullayev açıb. O, muxtar respublikamızda sosial-iqtisadi inkişafın dinamik xarakter alması, bank sisteminin inkişafı, iqtisadi və maliyyə savadlılığının artırılması, idarənin həyata keçirdiyi funksiyalar və muxtar respublika iqtisadiyyatı üçün bankın əhəmiyyəti barədə məlumat verib.

Tədbirdə bankın İqtisadi təhlil və statistika şöbəsinin aparıcı mütəxəssisi Hafiz İsmayılbəyli slaydlar vasitəsilə ölkəmizdə fəaliyyət göstərən müasir bank sisteminin, Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatasının, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin funksiyaları, bank və bank olmayan kredit təşkilatları, bankların iqtisadi proseslərdə rolu, iş prinsipləri barədə danışıb.



Bankın iqtisadi təhlil və statistika şöbəsinin aparıcı mütəxəssisi muxtar respublikada bankçılıq sahəsi üzrə tətbiq olunan dövlət proqramları, həmin proqramlardan irəli gələn vəzifələrin icrası istiqamətində görülmüş işlərdən də bəhs edib.

Muxtar respublikamızda bank sektorunun cari vəziyyətindən, bu sahədə görülmüş işlərdən və əldə olunan nailiyyətlərdən söz açılan tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonra qonaqlar Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin, muxtar respublikanın bank infrastrukturlarının fəaliyyəti ilə yaxından tanış olub, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini ziyarət ediblər.

Qonaqlar bu gün Naxçıvan şəhərinin görməli yerlərini gəzəcək, Naxçıvan Dövlət Texniki Kollecində maliyyə savadlılığının artırılması ilə bağlı seminar-treninqdə iştirak edəcəklər.

**Muxtar MƏMMƏDOV**

*Müasir Naxçıvanın iqtisadiyyatında yüksəkkeyfiyyətli sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşmış xeyli sayda müəssisələrin fəaliyyət göstərməsi muxtar respublikada sahibkarlığa verilən dəstək sayəsində mümkün olub. Yeni istifadəyə verilən müəssisələr üçün müasir texnoloji avadanlıqların gətirilib quraşdırılması, daxili bazarın qorunması, yerli istehsalçıların işinin stimullaşdırılması sənaye sahəsinin canlanmasına mühüm təsir edən amillərdəndir.*

## Sənaye Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının əsasını təşkil edir

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, iqtisadi təhlükəsizliyə tam nail olunması buradakı bütün iqtisadi resursları dövriyyəyə cəlb edə bilən və bununla da, onların səmərəli istifadəsinə şərait yaradan sənaye məhsulu istehsalından keçir. Əsasən, yeyinti, yüngül və digər sənaye sahələrini özündə birləşdirən bu vacib sahə XX əsrin ortalarından başlayaraq inkişaf yoluna qədəm qoyub. Bu məsələlər ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə xüsusilə diqqət mərkəzində olub, həmin dövr Naxçıvan Muxtar Respublikası sənayesinin inkişafında mühüm mərhələ kimi yadda qalıb. Belə ki, 1965-ci ildə muxtar respublika sənayesi cəmi 40 adda məhsul istehsal etdiyi halda, 1970-1980-ci illərdə artıq muxtar respublikada yüzlərlə növdə məhsul istehsal edilir, onların xeyli hissəsi respublika xaricinə göndərilirdi. O dövrdə Azərbaycanda istehsal edilən daşduzun, molibdenin, sink və qurğuşunun, mineral suların, ipək xammalının, inşaat materiallarının, mərmərin, şərabın, meyvə və mürəbbə konservlərinin böyük bir hissəsi muxtar respublikanın payına düşürdü.



1970-1985-ci illərdə iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün Naxçıvan Muxtar Respublikasına 900 milyon manat sərmayə qoyulmuşdu. Həmin illərdə Naxçıvanda alt trikotaj fabriki, yeni mineral sudoldurma zavodu, şüşə qablar zavodu, taxıl məhsulları kombinatı, iri evtikmə kombinatı və dəmir-beton məmulatları zavodu, Şahtaxtı daş karxanası kimi, bütövlükdə, 22 iri sənaye müəssisəsi, qonşu İran dövləti ilə birgə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası tikilib istifadəyə verilmişdi. Naxçıvanda faydalı qazıntı hasilatı xüsusi yer tuturdu. Sənaye əhəmiyyətli daşduz, dolomit, travertin, tuf, mərmərləşmiş əhəngdaşı, gips, gil, qum, mergel, sink-qurğuşun, molibden, mis-molibden, qızıl və mineral sular kimi zəngin təbii sərvətlərə malik muxtar respublikada müxtəlif növ tikinti materiallarının, o cümlədən dəmir-beton, kərpic, travertin, mərmər və sair məhsulların istehsalının genişləndirilməsinə xüsusi diqqət yetirilirdi.

1987-1993-cü illərdə baş verən məlum hadisələr, ümumilikdə, Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına zərbə vurdu. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə yaradılan sabitlik bütün sahələr kimi, Naxçıvanda sənaye sahəsinin də inkişafına böyük imkanlar açdı. Artıq muxtar respublikada mövcud müəssisələrin fəaliyyətinin bərpası və ya yenidən qurulması, müasir texnologiyaların tətbiqinə əsaslanan yeni müəssisələrin yaradılması hesabına sənaye sahəsi ümumi daxili məhsulda ilk yeri tutur. Belə ki, 2016-cı ilin nəticələrinə əsasən sənaye sahəsi 28 faizlik payla ÜDM-də ilk sırada yer alıb.



Naxçıvan Muxtar Respublikasında sənaye çoxprofilli və yüksək texnologiyanın tətbiqinə əsaslanmaqla əhali məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Artıq muxtar respublikada yerli və idxal xammal əsasında işləyən çox sayda sənaye müəssisələri fəaliyyət göstərməkdədir. Bu müəssisələrin əksəriyyətinin Naxçıvan şəhərində olması muxtar respublika paytaxtının sənaye şəhəri adlandırılmasına əsas verir. Təkcə Naxçıvan şəhərində 35-ə yaxın profil üzrə 100-dən çox ixtisaslaşmış sənaye müəssisəsi vardır. Onlar arasında plastmas qablardan avtomobillərə, polietilen torbalardan mebellərə, quş ətindən şirniyyat məhsullarına qədər çox geniş profildə məhsullar istehsal edən müəssisələri qeyd etmək mümkündür. Daxili bazarın tələbatının ödənilməsi üçün yerli xammaldan səmərəli istifadə olunmaqla, idxal əvəzləyici və ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər artıq öz bəhrəsini verməyə başlayıb. Məsələn, hazırda iki yüzdən çox insanın işlə təmin olunduğu "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması, əhalinin ən müxtəlif keyfiyyətli qida məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Bu müəssisədə hazırda çox çeşiddə çörək, süd və şirniyyat kimi milli mətbəximizdə mühüm yer tutan ərzaq məhsulları istehsal edilir. Müəssisədə Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Beləliklə, əvvəllər alıcılar xaricdən gətirilən ərzaq və qeyri-ərzaq məhsullarına maraq göstərirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara üstünlük verilir.

"Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətində Azərbaycanın məşhur mineral su brendi "Badamlı" istehsal olunur. 2009-cu ildə yüksək texnologiya ilə dünya standartları səviyyəsində məhsul istehsalına başlanılan bu müəssisə 1947-ci ildən bəri hər yerdə tanınan "Badamlı"nın şöhrətinin özünə qaytarılmasında mühüm rol oynayıb. Müəssisədə geniş çeşiddə istehsal olunan qazlı və qazsız "Badamlı" suları təkcə Naxçıvanda deyil, ölkəmizin hər yerində, eləcə də Rusiya və Dubay bazarlarında özünə alıcı tapır. Bu qiymətli təbii sərvətimizin mineral sular ixracatçısı olan Rusiya bazarına çıxarılması biznes əlaqələrinin genişləndirilməsi ilə bağlıdırsa, digər tərəfdən "Badamlı" təbii mineral süfrə suyunun xarici bazarda özünəməxsus yer tutması və möhkəmlənməsi onun dünya standartlarına uyğun yüksəkkeyfiyyətli istehsalı və müalicəvi əhəmiyyəti ilə əlaqədardır.

Bu gün muxtar respublikanın digər bir əhəmiyyətli sənaye müəssisəsi olan Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillərə tələbat böyükdür. Zavod yaradıldığı 2008-ci ildən bəri müxtəlif modellərdə 5 mindən çox minik avtomobili istehsal edib. Bu zavod muxtar respublikada nümunəvi taksi nəqliyyatının təşkili üçün lazım olan avtomobillərin təmin olunması baxımından mühüm rol oynayır. Hazırda zavodun istehsal etdiyi avtomobillərə Naxçıvandan başqa ölkəmizin digər regionlarında, o cümlədən paytaxt Bakıda böyük tələbat vardır.

Naxçıvan Muxtar Respublikasında davam etdirilən genişmiqyaslı quruculuq işlərində "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin də payı böyükdür. 2010-cu ildə yaradılmış bu müəssisə Kəngərli rayonunun ərazisindən gətirilən xammal əsasında travertin və mərmər emalı üzrə ixtisaslaşıb. Müəssisənin istehsal etdiyi məhsullara muxtar respublikadan kənarda da böyük tələbat vardır.



Yeraltı və yerüstü sərvətlərlə zəngin muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə məqsədilə reallaşdırılan daha bir nəhəng layihə 2012-ci ildə yaradılan Naxçıvan Sement Zavodudur. Muxtar respublika ərazisində "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının mütəxəssisləri tərəfindən lazımi xammal aşkar olunduqdan sonra Kəngərli rayonunda zavodun tikintisinə başlanılıb. Öz əhəmiyyətinə görə son 20 ilin ən böyük layihələrindən olan müəssisənin inşası nəticəsində muxtar respublikada sementə olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilməyə başlanıb.

Bunlarla yanaşı, Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Mebel Fabriki", "Cahan-Pen" və "Dizayn Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətləri, habelə qida sektorunda uğurla fəaliyyət göstərən "Ləzzət Qida Sənaye", "Araz-3" və "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli cəmiyyətləri, muxtar respublikanın rayonlarındakı istehsal-emal müəssisələri də regionun sənaye potensialını artıran mühüm obyektlərindir.

*Naxçıvanda fəaliyyət göstərən çox sayda digər istehsal-emal müəssisələrinin adlarını çəkmək olar. Ümumilikdə isə onların fəaliyyətinin əsas məqsədi muxtar respublikada daxili bazarın tələbatlarının ödənilməsi və idxaldan asılılığın azaldılmasıdır. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən yeni iqtisadi siyasətə uyğun olaraq Naxçıvanda reallaşdırılan işlər öz uğurlu bəhrəsini verib. Belə ki, hazırda muxtar respublikada istehsal olunan 366 adda məhsul və əhalinin 344 növdə məhsula olan tələbatının tamamilə yerli istehsal hesabına ödənilməsi bu sahədə böyük bir təcrübə və potensialın qazanıldığından xəbər verir. Bütün bunlar isə Naxçıvanın hazırkı və gələcəkdəki iqtisadi potensialının ümumiləşmiş bir göstəricisidir.*

**Aida HƏSƏNLİ**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

---

*Son illər muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməklə yanaşı, məşğulluğun təmin edilməsinə də stimul verib. Bu sahədə aparılan ardıcıl tədbirlər hesabına yeni meyvə bağları salınır, təsərrüfatların fəaliyyəti genişlənir.*

## Qaraqala kəndində yaradılan tingçilik təsərrüfatı genişləndirilir

Babək rayonunda mövcud olan tingçilik təsərrüfatlarından biri də Qaraqala kəndində yaşayan fiziki şəxs Faiq Bayramova aiddir. Artıq 3 ildir ki, bu sahə ilə məşğul olan torpaq mülkiyyətçisi Sahibkarlığa Kömək Fondundan 30 min manat kredit götürərək geniş tingçilik təsərrüfatı yaradıb. İcarəyə götürdüyü 5 hektarlıq ərazidə müxtəlif növ meyvə tingləri yetişdirən sahibkar bu işdən yaxşı gəlir əldə edir. Faiq Bayramovun sözlərinə görə, ötən il 18 minə yaxın ting satılıb və onların qiyməti növlərindən asılı olaraq 3-5 manat arasında dəyişir.

Bu təsərrüfatın yaradılması doğma diyarımızda aparılan yaşıllaşdırma tədbirlərinə töhfə verməklə yanaşı, xaricdən Naxçıvana ting idxalını da azaldıb. Bağda alma, ərik, gilas, badam, armud, şaftalı, göycə və digər meyvə tingləri olmaqla, 60-a yaxın meyvə tingi, o cümlədən Abutalıbı əriyi, Əndəmic və Bənəniyar heyvası, Kükü alması, Naxçıvan göycəsi, eləcə də digər məşhur yerli sortlar yetişdirilir. Həmçinin sahibkar qonşu Türkiyə və İrandan da meyvə tingləri gətirib, yerli torpaq-iqlim şəraitinə uyğunlaşdıraraq çoxaldıb.

Faiq Bayramov böyük ərazidə saldığı üzüm bağında da Naxçıvanın məşhur üzüm sortlarını yetişdirir. Bağın suvarılması üçün heç bir çətinlik yoxdur. Heydər Əliyev Su Anbarının sol sahil kanalı təsərrüfatın yaxınlığında yerləşdiyi üçün suvarma da vaxtında və mütəşəkkilliklə aparılır. Müsahibimiz bizi yeni saldığı qoz bağı ilə də tanış etdi. Burada "İsrail sortu" adı ilə tanınan qoz tingləri salınıb. Həmin sortlar məhsuldarlıq baxımından olduqca əlverişli hesab edilir. Belə ki, əgər yerli qoz sortları 6-7 ilə məhsul verirsə, yeni salınan tinglər 2-3 ildən sonra bara dolur. Bu barədə danışan Faiq Bayramov deyir ki, iqtisadi baxımdan olduqca səmərəli olan qoza muxtar respublikanın dağ kəndlərində əsl ruzi mənbəyi kimi baxırlar. Sevindirici haldır ki, dövlət tərəfindən bu bağların salınmasına lazımi miqdarda vəsait ayrılır.

Gördüyü kimi, əlverişli sahibkarlıq mühitindən yararlanan hər kəs, sözün həqiqi mənasında, sahibkar adını qazana bilər. Bir də zəhmət bataqlıqda gül də bitirər, – deyiblər. İllər öncə bir parça çörək üçün yaxın-uzaq ellərə üz tutanlar bu gün torpağının qədir-qiymətini bilərək onun həqiqi sahiblərinə çevriliblər.

**Muxtar RZAZADƏ**

---

## "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyətində müasir avadanlıq quraşdırılıb

Muxtar respublikada yerli xammala və yüksək texnologiyanın tətbiqinə əsaslanan sənaye müəssisələri istehlak bazarında idxaldan asılılığın azaldılmasında mühüm paya malik olmaqla, eyni zamanda məşğulluq məsələlərinin həllində də əhəmiyyətlidir. 2006-cı ildən fəaliyyət göstərən "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti də muxtar respublikanın istehlak bazarında yüksəkkeyfiyyətli pivəyə və digər içkilərə olan tələbatın yerli imkanlar hesabına ödənilməsini təmin edir. Hazırda 60 nəfərə yaxın işçinin çalışdığı bu istehsal müəssisəsi ötən dövrdə öz fəaliyyətini genişləndirməklə birlikdə yeni çeşidlərin yaradılmasına da diqqəti artırıb. Şübhəsiz, biznesdə keyfiyyət prinsiplərinin ön planda tutulması, müasir texnologiyalardan istifadə olunması ilə istehlakçı məmnuniyyətinə nail olunması uğur qazanmanın əsas yollarındandır. "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyətində bu tələblərə cavab verən iş sistemi həmişə diqqətdə saxlanılır. Müəssisənin sahibkarı Seyfəddin Rəhimovla söhbətimizdə də bu qənaətə gəldik.

Müəssisədə qurulmuş yeni avadanlıq haqqında danışan sahibkar bildirdi ki, hazırda burada 10 çeşiddə pivə və digər spirtsiz içkilər istehsal olunur. Rusiyadan alınmış bu istehsal xətti isə 0,33 və 0,5 litrlik şüşə butulkalarda pivənin qablaşdırılması üçündür. İstehsal gücü saatda 2 min butulka olan bu avadanlığın alınıb quraşdırılması məqsədilə Sahibkarlığa Kömək Fondundan 150 min manat həcmində kredit alınıb. Nəfis etiketli, yüksəkkeyfiyyətli Naxçıvan pivəsinin şüşə butulkalarda qablaşdırılması artan tələbatın ödənilməsi məqsədi daşıyır. Naxçıvana gələn çox sayda xarici turistlərin bu məhsula olan tələbatını da nəzərə alsaq, plastmas taralarda istehsal olunan məhsulla yanaşı, yeni çeşidə olan tələbat da daha yüksək olacaq, – deyə sahibkar bildirdi .

Qeyd edək ki, bu yeni avadanlığın qurulması ilə müəssisədə əlavə 5 yeni iş yeri də açılıb. Burada işçilərin məhsuldar fəaliyyəti üçün normal iş şəraiti yaradılıb, onların istifadəsi üçün servis avtobusu, istehsal olunan məhsulun ticarət məntəqələrinə çatdırılması üçün isə xüsusi avtomaşınlar alınıb. İqtisadi məsələlərlə yanaşı, "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti ətraf mühitin qorunması və ekoloji təmizliyə də ciddi fikir verir. Müəssisə ətrafındakı səliqəsahman, təmizlik və yaşıllıq bunu deməyə əsas verir.

**✍ Əli CABBAROV**

Naxçıvan Dövlət Universiteti – 50

# Yarıməsrlik universitetin elm və innovasiya fəaliyyəti



***50 yaşı tamam olan, bu illər ərzində özünəməxsus tarixi inkişaf yolu keçən Naxçıvan Dövlət Universitetinin Azərbaycanda elm və təhsilin inkişafında, eləcə də kadr potensialının formalaşmasında xüsusi rolu vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu ali təhsil ocağının ölkədə və beynəlxalq aləmdə nüfuzu daha da artmaqdadır.***

Böyük Britaniyanın dünyada məşhur olan Kembric Universitetinin bu ali məktəbi dostluq və əməkdaşlıq üçün seçməsi, ənənəyə uyğun olaraq ali məktəblər haqqında hər il nəşr etdirdiyi "Mükəmməlliyə bələdçi. Qlobal təhsil və imkanlar" seriyasından olan bələdçi kitabında Naxçıvan Dövlət Universitetinə yer ayrılması universitetin beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, həm də, bütövlükdə, Azərbaycan ali məktəbinin əhəmiyyətli uğurlarından biri hesab oluna bilər. Həmin jurnalın 2013-cü il nəşrində 44 ölkədən 183 təhsil müəssisəsi sırasında Azərbaycandan ilk dəfə məhz əsas elm və ali təhsil mərkəzi olan Naxçıvan Dövlət Universiteti və onun əldə etdiyi uğurlar haqqında məqalə verilmişdir. 2014-cü və 2017-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə anonim qaydada Azərbaycan ali təhsil müəssisələri arasında keçirilən reytinq sıralamasında Naxçıvan Dövlət Universitetinin birinci yerə layiq görülməsi də mühüm nailiyyətdir.

Universitetin professor-müəllim heyətinin apardığı elmi-tədqiqat işlərinin nəticəsi olaraq son on ildə universitet əməkdaşlarının 476 kitabı, o cümlədən 201 monoqrafiyası, 30 dərslik, 245 dərs vəsaiti, 501 metodik vəsait və proqramı, 7686 elmi məqaləsi və 1076 tezisi çap olunmuşdur. Elmi məqalələrdən 1176-sı, tezislərdən isə 338-i xaricdə dərc edilmişdir. Həmin məqalələrdən 67-si Tomson Royter İnstitutu tərəfindən müəyyən olunan və elmi ictimaiyyətin birmənalı şəkildə qəbul etdiyi Science Citation Index seriyasına daxil olan impakt faktorlu jurnallarda işıq üzü görmüşdür.

Bu illər ərzində ali təhsil ocağında 81 beynəlxalq səviyyəli, 96 respublika səviyyəli, 200-ə yaxın muxtar respublika və universitet səviyyəli konfrans keçirilmişdir. Son on ildə universitet əməkdaşlarından 74 nəfər fəlsəfə doktoru proqramı üzrə, 14 nəfər elmlər doktoru proqramı üzrə müdafiə etmişlər. Universitetin iki nəfər əməkdaşı 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Naxçıvan Dövlət Universitetində 1997-ci ildən Dissertasiya Şurası fəaliyyət göstərir ki, bu şurada Azərbaycan ədəbiyyatı, Azərbaycan dili, dünya ədəbiyyatı, Pedaqogika və sənətşünaslıq üzrə indiyə qədər yüzlərlə doktorant və dissertant müdafiə etmişdir. 2015-ci ildən parazitologiya və entomologiya ixtisasları üzrə, 2017-ci ildən isə fəlsəfə və pedaqogika üzrə də Dissertasiya Şurası fəaliyyətə başlamışdır. Hazırda ali məktəbin doktoranturasında fəlsəfə doktoru proqramı üzrə 15 ixtisasda 32 doktorant, 19-u xarici vətəndaş olmaqla, 30 ixtisas üzrə 116 dissertant, elmlər doktoru proqramı üzrə 6 ixtisasda 7 doktorant, 10 ixtisas üzrə 16 dissertant təhsil almaqdadır.

Universitetdə magistratura təhsilinin təkmilləşdirilməsinə də xüsusi əhəmiyyət verilir, bunun üçün möhkəm maddi-texniki baza yaradılıb. 20 il bundan öncə 7 ixtisas üzrə 27 nəfərə magistr təhsili verməyə başlayan universitetdə hazırda 38 ixtisaslaşma üzrə 250 magistr əyani təhsil alır. Magistraturada ilk buraxılışın olduğu 1999-cu ildən bu günədək 1593 nəfər magistr dərəcəsi alıb. 2002-ci ildən başlayaraq Naxçıvan Dövlət Universitetində magistratura pilləsini müxtəlif ölkələrdən olan 129 əcnəbi magistrant bitirib. Magistrantlar yaradılan bu səmərəli şəraitdən bəhrələnərək Naxçıvan Dövlət Universitetində 2009-cu ildən etibarən keçirilən ənənəvi regional elmi konfranslarda, respublikamızın müxtəlif ali təhsil müəssisələrində və xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edirlər.

1997-ci il fevralın 13-də universitetin "Elmi əsərlər" məcmuəsi Azərbaycan Mətbuat və İnformasiya Nazirliyinin qeydiyyatından keçmiş, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2010-cu il 30 aprel tarixli qərarı ilə jurnalın humanitar, ictimai, təbiət və tibb, fizika-riyaziyyat və texnika elmləri üzrə dörd seriyası tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilmişdir. 2011-ci ildə isə "Elmi əsərlər" jurnalının bu seriyalardan olan nəşrləri "ISSN" beynəlxalq seriya nömrəsi almışdır. Həmin ildən etibarən hər il jurnalın 8 nömrəsi çap olunur. 2014-cü ildən başlayaraq "Elmi əsərlər" jurnalının bütün nömrələri onlayn şəkildə universitetin veb saytında yerləşdirilir.

Belə mühüm elmi nailiyyətlərin qazanılmasında universitetin gündən-günə genişlənən maddi-texniki bazası həlledici rol oynayır. 2014-cü ildə 1 ədəd tədris vəsaiti kimi istifadə olunan Dəmiryol yük çeşidləmə stansiyasının kompüterlə idarə olunan maketi, 33 ədəd fərdi kompüter, 10 printer, 6 kamera, 3 ədəd Universitet Televiziyası üçün yayım avadanlığı alınmışdır. 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə istifadəyə verilən universitet xəstəxanasının və Baytarlıq təbabəti ixtisasının yeni binalarında Baytarlıq ixtisası tələbələri üçün universal laboratoriya, universitet xəstəxanası üçün diaqnostika, stomatologiya, göz, cərrahiyyə, anesteziologiya və reanimasiya, sterilizasiya, fizioterapiya kabinələri, laboratoriya yaradılmışdır.

2015-ci ildə Fizika ixtisasında təhsil alan tələbələr üçün 32 adda yeni laborator avadanlıqlar alınıb quraşdırılmışdır. 2016-cı ildə isə kimya və biologiya ixtisasları üçün laborator avadanlıqlar alınaraq müəllim və tələbələrin ixtiyarına verilmişdir. Hazırda İqtisadiyyat fakültəsi üçün yeni tədris korpusu tikilir.

2015-ci ildə Naxçıvan Dövlət Universitetində Cənubi Koreya Respublikasının KOİCA şirkəti ilə birgə həyata keçirilən "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsinin açılışı olmuşdur. Layihə çərçivəsində elektron kitabxana yenidən qurulmuş, yeni kompüterlərlə təmin olunmuş, universitetin bütün fakültələri elektron kürsülər, video müşahidə sistemləri, test imtahanları və informatika dərslərini təşkil etmək üçün kompüter otaqları ilə təmin olunaraq müəllim və tələbələrin ixtiyarına verilmişdir.

Artıq 5 ildir ki, AMEA İnformasiya Texnologiyaları İnstitutunun alim və mütəxəssislərinin distant təhsil sistemi vasitəsilə Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat institutlarının və təhsil müəssisələrinin doktorant və dissertantları üçün informatika fənninin onlayn dərsləri davam etdirilir. İki ildir ki, həmin dərslərin nəticəsi olaraq doktorant və dissertantlar informatika fənnindən minimum imtahanını onlayn qaydada verirlər və doktorantlar müvafiq sertifikatlarla təmin olunurlar.

Naxçıvan Dövlət Universitetinin bakalavr səviyyəsində tədrisin kredit sistemi ilə təşkili qaydalarında islahatlar aparılmış və bir çox yeniliklərə imza atılmışdır. Kredit sistemi ilə tədrisin təşkilində Bolonya sisteminin müddəalarına müvafiq olaraq tələbələrin akademik mobilliyi istiqamətində Naxçıvan Dövlət Universitetində bir sıra tədbirlər həyata keçirilmişdir. Koreyanın Kim-Çonq, Türkiyənin Ərzurum Atatürk, Ərdahan, Gürcüstanın Batumi Dövlət, Litvanın Klaypeda, İspaniyanın Santyaqo De Kompostella universitetləri ilə razılaşdırılmış müqavilələr əsasında tələbə mobilliyinə start verilmişdir. Universitet rektorluğunda "Elektron təhsil" və "Elektron test" layihələri daha da genişləndirilərək "Elektron kitabxana", "Elektron idarəetmə", "Elektron Naxçıvan" layihələri ilə birgə "Elektron universitet" layihəsinin hazırlıqlarına başlanılmışdır.

Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Naxçıvan Dövlət Universitetinin tərəfdaş kimi çıxış etdiyi "Azərbaycanda şifahi və yazılı tərcüməçiliyin inkişafı – RİTSA", "İnnovasiyaların işgüzarlığa çevrilməsində universitetlərin rolunun artırılması – UnIvEnt" və "Avropa İttifaqının Şərq qonşuluğunda tibb sahəsində bakalavr təhsilinin inkişafı" (TEMPUS), Azərbaycan universitetlərində doktorantura təhsil pilləsinin Avropaya inteqrasiyası "NİZAMİ" (ERASMUS +) layihələri üzrə işlər davam etdirilmişdir. Həmin layihələr çərçivəsində universitet əməkdaşları xarici ölkələrdə səfərlərdə olmuş və təlim proqramlarında iştirak etmişlər.

Universitetin 1968-ci ildən fəaliyyət göstərən Elmi Kitabxanasının fondunda dünyanın 30-dan çox dilində 200 minə yaxın ədəbiyyat saxlanılır. Hazırda kitabxanada 6 şöbə, 11 fond və 11 oxu zalı var. Burada 15 min oxucuya ümumi və ixtisaslaşdırılmış oxu zalları vasitəsilə xidmət göstərilir. 2013-cü ildən isə kitabxana elektron kitabxana kimi fəaliyyətini daha da genişləndirib.

Kitabxanada "PROLİB" avtomatlaşdırılmış Kitabxana-İnformasiya İdarəetmə sistemi tətbiq olunub və elektron kataloqun bazalarında işlər bu proqram vasitəsilə həyata keçirilir. Elmi Kitabxanada bu günədək 3 min 500 adda 30 min sayda kitabın elektron kataloqu yazılmış, 5 mindən artıq kitabın isə tammətnli elektron versiyası hazırlanaraq oxucuların istifadəsinə verilmişdir.

*Universitetdə elm və innovasiya fəaliyyəti üçün yaradılan hərtərəfli şərait, qazanılan nailiyyətlər bir daha təsdiq edir ki, Naxçıvan Dövlət Universiteti bundan sonra da dünyaya inteqrasiya, muxtar respublikada yüksəkixtisaslı mütəxəssis hazırlığı, elmi kadr potensialının gücləndirilməsi istiqamətində öz sözünü deyəcək.*

**Mübariz NURİYEV**
***Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru***

***Naxçıvan Turizm İnformasiya Mərkəzində "Muxtar respublikamızı tanıyaq" devizi altında keçirilən fotomüsabiqənin yekun tədbiri olub.***

# *"Muxtar respublikamızı tanıyaq"* devizi altında keçirilən fotomüsabiqəyə yekun vurulub



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, Naxçıvanın qədim tarixə və zəngin mədəniyyətə malik olması, yüksək qonaqpərvərlik ənənələri, flora və faunası, müxtəlif iqlim qurşaqları və təbiəti, əlverişli infrastrukturu muxtar respublikada turizmin inkişafına geniş imkanlar açır.

Vurğulanıb ki, bu diyar tarix və mədəniyyət abidələri ilə zəngindir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən, Naxçıvan ərazisində 57 dünya və 500-ə yaxın ölkə əhəmiyyətli olmaqla, 1202 daşınmaz tarix və mədəniyyət abidəsi qeydə alınıb və pasportlaşdırılıb. Son illərdə daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa, təmir və konservasiya olunması da diqqət mərkəzindədir və bu istiqamətdə ardıcıl işlər görülür.

Diqqətə çatdırılıb ki, muxtar respublika ərazisində "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin, digər pir və ziyarətgahların olması dini turizm həvəskarlarını buraya cəlb edir. Həmçinin Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası müalicə turizminin inkişafına şərait yaradır. Təmiz hava, ekoloji cəhətdən təmiz qida məhsulları, lazımi infrastruktur, həmçinin sabit və təhlükəsiz həyat isə turistlərin müasir dövrdə ən çox əhəmiyyət verdikləri amildir. Bunun nəticəsidir ki, keçən il muxtar respublikamıza gələnlərin sayı 403 mindən çox, bu ilin dörd ayı ərzində gələnlərin sayı isə 130 minə yaxın olub. Bu isə keçən ilin eyni dövrü ilə müqayisədə 5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasının çox geniş turizm imkanlarına malik olduğunu vurğulayan Natəvan Qədimova qeyd edib ki, bu ehtiyatlardan səmərəli şəkildə istifadə olunması üçün hər birimiz var gücümüzlə çalışmalı, muxtar respublikamızın dünyaya tanıdılmasında əlimizdən gələni əsirgəməməliyik. Turizmin inkişafında turizm potensialının mövcudluğu ilə yanaşı, reklam və təbliğat işi də mühüm əhəmiyyətə malikdir. Muxtar respublikanın turizm potensialının tanıdılması, gənclərin təbliğat işində fəallığının artırılması məqsədilə nazirlik tərəfindən "Muxtar respublikamızı tanıyaq" devizi altında fotomüsabiqə elan edilib.

Nazirliyin Turizm şöbəsinin müdiri Əkbər Novruzov çıxışında bildirib ki, fotomüsabiqə 1 yanvar 2017-ci il tarixdən 30 aprel 2017-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Muxtar respublikamızı tanıyaq" başlığı altında "Ən yaxşı Naxçıvanın təbiət fotoşəkli", "Ən yaxşı memarlıq abidəsi fotoşəkli" və "Ən yaxşı mədəni irs nümunəsi fotoşəkli" nominasiyaları üzrə keçirilib. Müsabiqəyə 43 iştirakçı müraciət edib və üç nominasiya üzrə, ümumilikdə, 300 fotoşəkil təqdim olunub. Həmin fotoşəkillərin qiymətləndirilməsi, qaliblərin müəyyənləşdirilməsi məqsədilə 5 nəfərdən ibarət münsiflər heyəti yaradılıb və fotoların seçilməsi iki mərhələdə aparılıb. Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirilməsi nəticəsində əsas meyar kimi fotoşəklin müsabiqənin məqsədinə uyğunluğu, orijinallığı, asan qavranılması və keyfiyyəti nəzərə alınıb.

Tədbirdə fotomüsabiqənin qalibi Aytən İsgəndərli və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi Rövşən Hüseynov çıxış ediblər.

Sonra müxtəlif nominasiyalar üzrə qaliblər I, II və III dərəcəli diplomlarla və fəxri fərmanlarla təltif olunublar. Müsabiqənin təşkilatçılarından üç nəfər isə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının fəxri fərmanı ilə təltif edilib.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Uşaq Filarmoniyası solistlərinin ifasında muğam və təsniflər səslənib və fotosərgiyə baxış olub.

**Əli RZAYEV**

# Tələbə Elmi Cəmiyyətinin yekun konfransı keçirilib

***"Naxçıvan" Universitetində 2016-2017-ci tədris ilində Tələbə Elmi Cəmiyyətinin xətti ilə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin yekununa həsr olunmuş konfrans keçirilib.***

Plenar iclası giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq qeyd edib ki, Tələbə Elmi Cəmiyyətinin əsas məqsədi ali təhsilli mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və təhsil alanların elmi-tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında ali təhsil müəssisələrinin işinə kömək etməkdən ibarətdir.

Rektor onu da vurğulayıb ki, Tələbə Elmi Cəmiyyəti sabahın gənc tədqiqatçılarının həqiqi axtarış və yaradıcılıq məktəbidir. Eyni zamanda bu cəmiyyət istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılmasında mühüm rol oynayır. Bu elmi arena tələbələrin nə qədər bilikli, bacarıqlı, elmə bağlı olmalarını nümayiş etdirmələri baxımından önəmlidir.

Konfransda ali təhsil ocağının Mühasibat uçotu və audit ixtisası üzrə IV kurs tələbəsi Günay Babayevanın "Elektron vergi xidmətləri", İqtisadiyyat ixtisasının I kurs tələbəsi Aydan Nabatovanın "Tələb və təklif", Riyaziyyat və informatika müəllimliyi ixtisasının III kurs tələbəsi Türqanə Nəbiyevanın "Sosial şəbəkə xidmətləri" və Xarici dil müəllimliyi ixtisasının III kurs tələbəsi Jalə Məmmədovanın "Leaarners differences" mövzularında hazırladıqları elmi-tədqiqat işləri konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Konfrans öz işini "Pedaqogika və psixologiya", "Azərbaycan dili və ədəbiyyat", "İqtisadiyyat", "Ümumi tarix", "Təbiət elmləri", "İdarəetmə", "Xarici dillər", "Beynəlxalq münasibətlər", "Riyaziyyat və informatika" bölmələri üzrə davam etdirib.

**Nuray ƏSGƏROVA**

## Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə mayın 24-də Naxçıvan şəhərinin Tumbul kəndində "Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər" mövzusunda maarifləndirici tədbir keçirilib.*

Naxçıvan Şəhər İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri İsmayıl Gülməmmədov tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Tural Cəfərov torpaq üzərində mülkiyyətin növlərindən danışaraq torpaqların keyfiyyətinə görə 4 qrupa ayrıldığını bildirib. O, torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququndan, dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsindən, torpaqların alqı-satqısından, vərəsəliyə keçməsindən, bağışlanmasından, dəyişdirilməsindən və digər əqdlərin bağlanma şərtlərindən danışıb. Məruzəçi torpaq sahələri üzərinə yaranan hüquqların dövlət qeydiyyatına alınmasının önəmini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Gəlirlər şöbəsinin müdiri Əli Həsənov mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri şəxsən özləri sosial sığorta haqlarının düzgün hesablanması və ödənilməsində maraqlı olmalıdırlar. Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün torpaqların ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının (116 manat) 1-ci keyfiyyət qrupu üzrə 12 faizi, yəni 13,92 manat, 2-ci keyfiyyət qrupu üzrə 8 faizi, yəni 9,28 manat, 3-cü keyfiyyət qrupu üzrə 4 faizi, yəni 4,64 manat, 4-cü keyfiyyət qrupu üzrə isə 2 faizi, yəni 2,32 manat miqdarında məcburi dövlət sosial sığortahaqqı ödəməlidirlər.

Qeyd edilib ki, muxtar respublikada məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi üsullar tətbiq edilməkdədir. Məcburi dövlət sosial sığortahaqqı ödəyiciləri məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsindən plastik bankomat kartları vasitəsilə, həm banklarda nağd qaydada onlayn ödənilməsi ilə, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilirlər.

Sonra fondun məsləhətçi-hüquqşünası Hürü Məhərrəmli sığorta-pensiya sistemi ilə bağlı qanunvericiliyin pozulmasına görə qanunvericilikdə nəzərdə tutulmuş inzibati tədbirlərdən, fondun Naxçıvan şəhər şöbəsinin müdiri Səfər Əhmədov isə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan şəhər şöbəsində sığorta-pensiya sahəsində görülmüş işlər barədə çıxış edərək tədbir iştirakçılarına məlumat veriblər.

Tədbirin sonunda mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Aktiv vərəmin aşkar edilməsi üçün yeni müayinə üsuluna başlanılıb

*Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası Şərur Rayon Mərkəzi Xəstəxanasında aktiv vərəmi aşkar etmək üçün Diaskintest (dəri içi allergik sınaq) müayinə üsuluna dair seminar keçirib.*

Tədbiri giriş sözü ilə dispanserin baş həkimi İlqar Rzayev açıb. Vərəm xəstəliyinin yayılmasının qarşısının alınması, xəstəliyin diaqnostikası və müalicəsinin yaxşılaşdırılması, xəstəliklə bağlı əlilliyin və ölüm hallarının azaldılması, vərəm əleyhinə müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsindən danışıb. İlqar Rzayev xəstələrin vərəm əleyhinə preparatlarla davamlı təminatından, ilk tibbi yardım müəssisələrinin vərəm xəstəliyinin erkən aşkarlanmasında və müalicəsində rolundan, Naxçıvan Muxtar Respublikasında vərəmin müayinə və müalicəsi üçün görülən işlərdən ətraflı bəhs edib. O, Diaskintest allergik müayinə üsulu haqqında məlumat verərək diqqətə çatdırıb ki, vərəm gecikmiş mərhələdə qarşısı alına bilməyən xəstəlik olduğundan hər il 1,6 milyon insanın həyatına son qoyur. Lakin bu mübarizəni bir an belə dayandırmadan xəstəliyin qarşısını almaq mümkündür. Müasir dünya səhiyyəsində tətbiq edilən Diaskintest müayinə üsulu xəstəliklə mübarizədə yeni mütərəqqi metodlardan biridir. Vərəmin müayinə və müalicəsində əhalinin məlumatlılıq səviyyəsini artırmaq, insanlar arasında maarifləndirmə işi aparmaq da vacibdir.

Dispanserin bakterioloji laboratoriyasının şöbə müdiri Səbuhi Məmmədov laboratoriyanın fəaliyyəti və apardığı yeni müayinə üsulu barədə məlumat verib. Sonra bu müayinə üsulunun tətbiqi üçün təlimatlar, vərəmin profilaktikası barədə bukletlər paylanılıb.

Çıxışlar slaydlarla müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

Tədbirin davamı olaraq Şərur rayonunda vərəmə görə monitorinqlərə başlanılıb. 6 kənd məktəbinin şagirdlərinə Diaskintest sınaqları qoyulub. Xəstəliyə yoluxma ehtimalı olan şagirdlərin Şərur Rayon Mərkəzi Xəstəxanasında, zəruri halda isə Ağciyər Xəstəlikləri Dispanserində təkrar müayinədən keçməsi məsləhət görülüb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Cüdoçularımızdan inamlı qələbə

***Qobustan Olimpiya-İdman Kompleksində 28 May – Respublika Gününə həsr olunmuş 2001-2003, 2004-2006-cı illər təvəllüdlü yeniyetmələr arasında keçirilən cüdo üzrə Qobustan rayon açıq birinciliyinə yekun vurulub.***

İki gün davam edən birincilikdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri də iştirak ediblər. İdmançılarımızdan ən uğurlu nəticəni 42 kiloqram çəki dərəcəsində mübarizə aparan Abbas Məmmədov əldə edib. Belə ki, final görüşünə kimi məğlubiyyətsiz irəliləyən cüdoçumuz yalnız həlledici qarşılaşmanı məğlub tərk edib və birinciliyi ikinci pillədə başa vurub. Digər cüdoçumuz Cəfər Məmmədli isə 34 kiloqram çəki dərəcəsində tatamiyə çıxıb. Yeniyetmə idmançımız birincilikdə bürünc medal qazanıb.

Sonda qalib idmançılarımıza təşkilatçıların diplom, medal və hədiyyələri təqdim olunub.

## Rayon birinciliyinə yekun vurulub

*Babək Rayon Mədəniyyət Evində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman və Təhsil nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun rayon birinciliyi keçirilib.*



Açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev və rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı oyunun keçirilməsi məqsədi haqqında geniş məlumat veriblər.

Bildirilib ki, məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.

Səkkiz komandanın iştirak etdiyi oyun yarımfinal və final mərhələsindən ibarət olub.

Yekunda Babək qəsəbə 1 nömrəli tam orta məktəbin "Odlar yurdu" komandası daha yüksək nəticə göstərərək qalib adını qazanıb. Kərimbəyli kənd tam orta məktəbinin "Zəka" komandası ikinci, Şıxmahmud kənd tam orta məktəbinin "Qarabağ" komandası isə üçüncü olub.

Qaliblərə təşkilatçıların fəxri fərman, diplom, kubok və bilik kitabçaları təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

***Bu günlərdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda birliyin üzvü, gənc rəssam Şəmsiyyə Zalovanın "Biz" adlı karikatura-şarj janrında fərdi yaradıcılıq sərgisi açılıb. Sərgidə rəssamın çəkdiyi tanınmış insanların şarjlarından, cəmiyyətdəki və müxtəlif xarakterlərdəki eybəcərlikləri ifşa edən karikaturalardan ibarət 58 əl işi yer alıb. "Biz" adlı sərgiylə tanış olmaq üçün biz də ora yollandıq, burada nümayiş etdirilən əsərlərlə tanış olduq, muxtar respublikanın tanınmış rəssamlarının, eləcə də gənclərin bu mədəniyyət tədbiri haqda fikirlərini öyrəndik.***

## *"Biz"* adlı fərdi karikatura-şarj sərgisi haqda bir neçə söz



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva ilə sərgi haqda söhbət zamanı qeyd etdi ki, muxtar respublikada təsviri incəsənətin inkişafına təkan vermək üçün məqsədyönlü tədbirlər həyata keçirilir, gənc rəssamların istedadlarının üzə çıxarılması, digər tanınmış rəssam və yaradıcı insanlarla əlaqələrinin yaradılması və möhkəmlənməsi təmin edilir. Karikatura müasir dövrün ən çox yayılmış sənət növlərindən biridir. Karikaturada konkret mesaj olmalı və o mesaj karikaturaya baxan adama çatmalıdır. Bu baxımdan Şəmsiyyə Zalovanın işləri xüsusilə diqqətçəkəndir. Əminliklə demək olar ki, gənc karikaturaçı rəssam gələcəkdə daha böyük uğurlar əldə edəcək.

Muxtar respublikanın daha bir tanınmış fırça ustası olan Xalq rəssamı Hüseynqulu Əliyev isə qeyd etdi ki, zəngin ənənələrə malik karikatura janrı Azərbaycan təsviri sənətinin mühüm sahələrindən biri kimi çoxcəhətli inkişaf yolu keçib. Dövri mətbuatda, xüsusi satirik jurnallarda öz əksini tapan karikaturalara Azərbaycanda ilk dəfə, təxminən, XIX əsrin ortalarında təsadüf edilib. Şərqdə ilk dəfə olaraq 1906-cı il aprelin 7-də görkəmli demokrat ədib, publisist Cəlil Məmmədquluzadənin redaktorluğu ilə "Molla Nəsrəddin" adlı həftəlik satirik jurnal işıq üzü görüb. Azərbaycan ədəbiyyatında böyük bir məktəb yaratmış "Molla Nəsrəddin" jurnalı, eyni zamanda təsviri sənətimizdə də yeni bir məktəbin karikatura janrının yaranmasına səbəb olub. Çox sevindirici haldır ki, bu gün muxtar respublikada fəaliyyət göstərən rəssamlar arasında karikatura janrını yaşadan və inkişaf etdirən gənc rəssamlar çoxdur. Şəmsiyyə Zalovanın karikaturalarında Azərbaycan karikatura sənətinin ənənələrindən süzülüb gələn zəngin elementləri görmək mümkündür.

Gənc rəssamlardan Xədicə Əlizadə, Araz Xudiyev, Arzu Novruzov, Nuranə Novruzova və başqaları da sərgi haqda öz təssüratlarını bölüşməyi unutmadılar. Qeyd etdilər ki, zəngin ənənələr əldə etmiş və görkəmli sənətkarlarımızın yaradıcılığında mühüm yer tutmuş karikatura bu gün müstəqil janr kimi tədqiq olunur, bu janrın keçdiyi tarixi yol və mərhələlər işıqlandırılır, mövcud olan bədii ənənələr müəyyənləşdirilir, onların müasir dövrümüzdə davam etdirilməsi təmin olunur. Şəmsiyyə Zalovanın sərgisində nümayiş etdirilən əsərlərdə də həmin ənənələr öz əksini tapıb. Rəssam yoldaşımıza gələcək işlərində yeni-yeni uğurlar diləyirik.

Sərgi əsnasında bu tədbirin, necə deyərlər, səbəbkarı gənc rəssam Şəmsiyyə Zalova ilə də söhbət etmək imkanı əldə etdik. O dedi ki, 6-cı sinifdən bu işlə məşğul olmağa başlayıb. Rəssamlığa böyük həvəsi olub, çox zəhmət çəkib. Qeyd etdi ki, bu gün artıq onun bəhrəsini görür. Sərgisinə bu qədər maraq göstərildiyinə, ünvanına deyilən xoş sözlərə görə çox sevinclidir və sərginin təşkilatçılarına, əməyinə verilən qiymətə görə minnətdardır.

Bəli, karikatura janrı ancaq demokratik cəmiyyətdə inkişaf edə bilər. Günü-gündən çiçəklənən müasir Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında da son illər bu janrın şaxələnməsinə, karikaturaçı rəssamların uğurla fəaliyyət göstərməsinə imkan yaranıb. Bu, ölkədə gedən ümumi proseslərin bir hissəsi, demokratik cəmiyyətin göstəricisi kimi qəbul olunur. Muxtar respublikamızın hərtərəfli inkişafı və yüksəlişi təsviri sənətin ayrılmaz tərkib hissəsi olan karikatura janrının da yeni inkişaf mərhələsinə qədəm qoymasına təkan verir. Cəmiyyətdə özünəməxsus yeri olan karikatura janrı milli ənənələrini qoruyub saxlamaqla bərabər, beynəlmiləl xüsusiyyətlər də kəsb edərək, dünya karikatura sənətinin ayrılmaz tərkib hissəsinə çevrilməkdədir. Bu mənada, gənc rəssam Şəmsiyyə Zalovanın sərgisinin təşkil olunmasını karikatura janrının inkişafı sahəsində görülən işlərin bəhrələrindən biri kimi dəyərləndirmək olar.

**✍ Nail ƏSGƏROV**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 438